

***ASİM YADİGAR***
***Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Əməkdar mədəniyyət işçisi***

# Akademik İsa Həbibbəyli və müasir dövr Naxçıvan ədəbi mühiti

**Həyatda elə şəxsiyyətlər var ki, onların adları harada çəkilirsə insanların çöhrəsinə təbəssüm qonur, işıq gəlir. Belə nurlu, işıqlı şəxsiyyətlərdən biri də bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının Tədbirlər Planına əsasən 70 illik yubileyini qeyd etdiyimiz Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, Əməkdar elm xadimi, akademik İsa Həbibbəylidir. Ömrünün 50 ildən artıq bir dövrünü elmi yaradıcılığa həsr edən, bu illər ərzində onlarla sanballı kitabları ilə Azərbaycan ədəbiyyatına, ədəbi tənqidinə, ədəbiyyatşünaslığına gözəl töhfələr verən akademik İsa Həbibbəyli öz tədqiqatları ilə bir daha Azərbaycanda yorulmaq bilməyən zəhmətkeş alim kimi də böyük hörmət və nüfuz qazanıb. İsa müəllimin son illərdə yazdığı məqalələri bir yerə toplasaq bəlkə də cild-cild kitablar meydana çıxar.**

Biz hamımız İsa müəllimi Cəlil Məmmədquluzadənin ən böyük tədqiqatçısı kimi tanıyırıq. İsa müəllim ömrünün böyük bir hissəsini Mirzə Cəlilin həyat və yaradıcılığının, əsərlərinin tədqiqinə həsr edib. O həm də bir alim kimi Azərbaycan ədəbiyyatının bütün dövrlərinə aid sanballı məqalələr, kitablar yazıb. İsa Həbibbəylinin oğlu Ərəstü Həbibbəylinin "525-ci qəzet"də dərc olunan "Bir ömrə sığmayan Mirzə Cəlil sevdalısı" məqaləsində oxuyuruq: "Əlbəttə ki, İsa Həbibbəyli yaradıcılığında ədəbiyyat tarixi, daha dəqiq desək, ədəbi şəxsiyyət özünü daha qabarıq göstərir. Yəqin ki, ədəbiyyat tarixinin elə bir dövrü yoxdur ki, həmin dövrün təmsilçiləri ilə bağlı onun tədqiqatları olmasın. Dahi Nizami Gəncəvidən başlayaraq müasir dövrün nümayəndələrinə-Rəşad Məcidə, Asim Yadigara qədər çoxsaylı şəxslərin yaradıcılığına həsr olunmuş kitabları və məqalələrini sadalamaq mümkündür".

Bir insan, bir şəxsiyyət kimi akademik İsa Həbibbəyli ruhən, qəlbən Naxçıvan diyarına bağlı insandır. Məhz elə buna görə də onun

"Nuhçıxandan-Naxçıvana" kitabındakı elmi məqalələrinə qısa nəzər salsaq görərik ki, burada Naxçıvan öz qədimliyi, tarixi keçmişi, ədəbi şəxsiyyətləri ilə İsa müəllimin könül dünyasını işıqlandıra bilib. Gəmiqaya dünyasından dünyaya boylanan İsa müəllim dünyada gedən sivilizasiya proseslərində Naxçıvanı da görür, Duzdağın tarixini yazmaqla beş min ildən artıq yaşı olan Naxçıvanın şəhər mədəniyyətindən söz açır.

İsa Həbibbəyli bir alim kimi qədim dövrlərdən bu günə kimi Naxçıvan torpağının yetirdiyi görkəmli şəxsiyyətlərin yaradıcılığını dərindən izləyib, həm qədim dövrlərdə, həm də müasir dövrdə bu diyarın yetirdiyi görkəmli şair və yazıçılar, ədəbiyyatşünas alimlər, elm xadimləri haqqında olduqca maraqlı tədqiqatlar aparıb. O, müasir şair və yazıçılarımızı da heç vaxt yaddan çıxarmayıb. Görkəmli akademik "Azərbaycan ədəbiyyatının Naxçıvan məktəbi", "Naxçıvanda ədəbi yüksəliş", "Ədəbiyyatşünaslıq elminin Naxçıvan məktəbi" məqalələrində Naxçıvan ədəbi mühitinin orta əsrlərdən bu günümüzə qədər olan bütün dövrlərini təhlil etməklə bu gün bədii yaradıcılıqla məşğul olan gənc şair və yazıçılar haqqında da söz deməyi özünə mənəvi borc bilir. İsa müəllimin "Azərbaycan ədəbiyyatının Naxçıvan məktəbi" məqaləsində müasir dövr Naxçıvan ədəbi mühitinin real mənzərəsini görə bilirik. O yazır: "Hüseyn İbrahimov xalq yazıçısı fəxri adını həyatını və yaradıcılığını bütövlükdə Naxçıvana həsr edərək qazanmışdı. "Şərq qapısı" qəzetinin şöbə müdiri Hüseyn Razi böyük poeziyanın qiymətli Naxçıvan səhifələrini yaratmışdı. Elman Həbib artıq müasir Azərbaycan şeirinin magistralına çıxmışdı. Bu gün poeziya sahəsində Asim Yadigar, Vaqif Məmmədov, Xanəli Kərimli, Muxtar Qasımzadə, Elbəyi Maqsudov, Əbülfəz Muxtaroğlu, Həsənəli Eyvazlı, İbrahim Yusifoğlu, Hüseyn Bağıroğlu, Elxan Yurdoğlu, Əbülfəz Ülvi, Şirməmməd Qüdrətoğlu, Maarif Təmkin, Zaur Vedili, Qafar Qərib, İlyas Fərəməzoğlu, Zeyqəm Vüqar, Ruhəngiz Əliyeva, Tural Ataş, Mirkərim Həsrət, Tofiq Qəbul, Ələsgər Nehrəmli, Qanun Ümmən, Qurban Məhərrəmoğlu, Humay Nur və başqaları mənsub olduqları ədəbi nəsilləri respublika miqyasında layiqincə təmsil edirlər. Bədii nəsr sahəsində də tanınmış və gənc yazıçılar ədəbi fəaliyyətlərini davam etdirirlər: Həmid Arzulu, Güllü Məmmədova, Rafiq Babayev, Fərəc Fərəcov, Akif İmanlı, Nurəddin Babayev, Nərgiz İsmayılova, Hüseyn Əsgərov və başqaları yazıb-yaratmaqda, yeni kitablarını çap etdirməkdə davam edirlər. Dramaturgiyanı isə muxtar respublikada Həmid Arzulu, Həsənəli Eyvazlı, Zaur Vedili təmsil edirlər. Yazıçı və şairlərin demək olar ki, əksəriyyəti həm də publisistika ilə məşğul olurlar".

Göründüyü kimi İsa müəllimin məqaləsindən gətirdiyim bu böyük sitatda biz 100 yaşlı Hüseyn İbrahimovdan başlamış 23 yaşlı Humay Nura qədər müasir ədəbi mühitimizdə qələm calmış və qələm çalan yaradıcılarımızın ümumi mənzərəsini gördük. Bir sözlə akademik İsa Həbibbəyli ömrünün və yaradıcılığının böyük bir hissəsini həsr etdiyi C. Məmmədquluzadədən, M.S.Ordubadidən, Ə.Qəmküsardan, Hüseyn Caviddən üzü bəri Naxçıvan ədəbi mühitinin tanınmış elə bir şair və yazıçı yoxdur ki, onun haqqında ayrıca məqalə yazmamış olsun. İslam Səfərli, M. Araz, A. Babayev, Ə. Abbasquliyev, Ə. Abbasov, C.Cavadlı, Ə. Yusifli, K.Ağayeva, E.Qasımova, A.Qasımlı haqqında yazdığı məqalələrində biz İsa müəllimin bu yaradıcı insanlara münasibətini və səmimiyyətini açıq-aydın şəkildə görürük. İsa Həbibbəylinin təsadüfi deyil ki, 1985-ci ildə çap olunan "Ədəbi yüksəliş" adlı ilk kitablarından biri də Naxçıvan ədəbi mühitinə həsr olunmuşdur.

İsa Həbibbəyli Naxçıvan ədəbi mühitinin yetirməsi olan görkəmli şair Məmməd Araza həsr etdiyi "Xalq şairi Məmməd Araz: böyük sənətlə şəxsiyyətin vəhdəti" məqaləsində onu "qəlb şairi", "tale şairi" adlandırır. Şairin vətəndaşlıq mövqeli şeirlərini daha çox tədqiqata cəlb edir. O, "Məmməd Araz ədəbi məktəbi" ifadəsini də



işlətməkdən çəkinmir: İsa müəllim yazır: "Səksəninci illərdən etibarən isə Azərbaycan şeirində Məmməd Arazın müstəqil poetik məktəbi yaranmaqdadır".

"Şəxsiyyətin və sənətin vəhdəti" məqaləsində İsa Həbibbəyli Xalq yazıçısı Hüseyn İbrahimovun yaradıcılığından söhbət açır. O, xalq yazıçısının hekayə və novellalarını, povest və romanlarını geniş təhlil edir, ömrü boyu Naxçıvanda yaşayıb-yaradan ağsaqqal yazıçının yaradıcılığını daha yüksək qiymətləndirir. Böyük yazıçının şəxsiyyəti və yaradıcılığı arasında vəhdət görən akademik yazır: "Hüseyn İbrahimovun maraqlı bir hekayəsi "Nəciblik" adlanır. Sonralar o, hekayə kitablarının da birini "Nəciblik" adlandırmışdır. Bizcə, nəciblik Hüseyn müəllimin şəxsiyyəti, xasiyyəti, əməl və rəftarı üçün də qabarıq görünən cəhətlərdən biri idi".

"Romantik pafosdan lirizmə" məqaləsini görkəmli akademik İsa Həbibbəyli qədim diyarımızın nəğməkar şairi İslam Səfərliyə həsr edib. Müəllif həmin məqaləsində İslam Səfərlinin Naxçıvanla bağlı şeirləri üzərində daha çox təhlil apararaq belə bir qənaətə gəlir ki, "Bütövlükdə İslam Səfərlinin Naxçıvan silsiləsi onun yaradıcılığındakı Azərbaycan mövzusunun əsas ana xətlərindən biri olub, həmin geniş coğrafiyaya və böyük mənaya malik mövzunu daha da zənginləşdirir və tamamlayır".

Biz eyni səmimiyyəti şair Hüseyn Razinin yaradıcılığına həsr olunmuş "Şeirimizin vətəndaşlıq qüruru" məqaləsində də görürük: "Hüseyn Razinin yaradıcılığında Azərbaycan həyatının mühüm hadisələri ilhamla tərənnüm olunur, tarixi şəxsiyyətlər diqqət mərkəzinə çəkilir. Şair bütövlükdə Azərbaycanın, o cümlədən də Naxçıvanın tarixi keçmişini, bu gününü və işıqlı gələcəyini xüsusi bir ilhamla tərənnüm edir. Onun şeirlərində yüksək vətəndaşlıq qüruru ifadə olunur".

İsa Həbibbəylinin Vaqif Məmmədova həsr etdiyi "Sənətdə vaqiflik" adlı böyük məqaləsi sonralar kitab şəklində də oxuculara təqdim olunub. Bu kitabında İsa müəllim şair Vaqif Məmmədovun yaradıcılığını-şeir və poemalarını, publisistik yazılarını təhlil süzgəcindən keçirir. Xüsusən də onun Sədərək uğrunda gedən döyüşlərdə bir əsgər kimi döyüşməsini, həmin günlərin əks-sədasını özündə yaşadan şeirlərini daha çox qabardır, bu poeziyanın uğurlu olmasını şairin müşahidələrinin həyatdan gəlməsi ilə bağlayır: "Heç şübhəsiz, Vaqif Məmmədovun Azərbaycanın müstəqilliyi uğrunda Vətən sərhədlərində gedən döyüşlərə, aparılan mübarizəyə həsr olunmuş şeirlərinin uğurlu olmasının bir səbəbi şairin özünün həmin prosesin ön cərgəsində olması ilə bağlıdır".

İsa müəllim "Günəş hənirli poeziya", "Yaradıcılıq işinə sədaqət", "Səhnədə həyat nəfəsi", "Günəş doğan yerdə poeziya" məqalələrində Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, "Şöhrət" ordenli şair Elman Həbibin yaradıcılığından söhbət açır. Onun şeirlərinin vətəndaşlıq qayəsindən danışmaqla yanaşı tamaşaya qoyulan "Sahilsiz çaylar" dramından da söhbət açır.

Akademik İsa Həbibbəylinin "Xanəli Kərimli şeirinin imkanları", "Telman Ağrıdağın poetik portreti", "İbrahim Yusifoğlunun poetik dünyası", "Akif İmanlı: elmdə və ədəbiyyatda" məqalələri adlarından göründüyü kimi Naxçıvanda yaşayıb-yaradan şairlərimizin, yazıçılarımızın yaradıcılığına həsr olunub.

Görkəmli alimin "Bütövlük və genişlik" məqaləsi Rüstəm Behrudiyə, "Vətəndaşlıq mövqeyi, plyus lirizm" məqaləsi Asim Yadigara,"Zəhmət və şeir" məqaləsi Hüseyn Fərəcoğluya, "Layla kimi" məqaləsi Validə Hüseynovaya, "Müasir bədii yanaşmaların işığında" məqaləsi İlyas Fərəməzoğluna, "Mürəkkəbliyin aydın ifadəsi" məqaləsi gənc yazıçı Tural Həsənliyə həsr olunub.

İyirmi yaşında ikinci romanı ilə ədəbiyyatda öz sözünü deməyə çalışan gənc yazıçı Tural Həsənliyə İsa müəllim uğurlar arzulamaqla yanaşı öz tövsiyyələrini də bildirir: "Əgər Tural Həsənli bundan sonra da öz istedadının qayğısına qalarsa, xüsusən, Azərbaycan və dünya ədəbiyyatını dərindən mütaliə edib öyrənərsə, ədəbiyyat yönlü bilikləri də yaradıcı şəkildə mənimsəyərsə və indikindən də artıq yaradıcılıq zəhmətinə qatlaşarsa, bu, ədəbiyyata orijinal bir nasirin zühuruna və ya regionda böyük ədəbiyyatın doğuluşu hadisəsinə çevrilə bilər".

"Şərurun poetik səsi" məqaləsi isə 1970-ci ildən Şərur rayonunda fəaliyyət göstərən "Şərur" ədəbi birliyinə həsr olunub. "Şərur" ədəbi birliyinin üzvləri arasından AMEA-nın iki həqiqi, bir müxbir üzvü, ona qədər elmlər doktoru və namizədi çıxıb. Bu birlik üzvlərindən 40 nəfərdən artıq şair, yazıçı və filoloq alim Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Elə ona görə də birlik haqqında İsa Həbibbəyli yazır: " Bütün bunlara görə "Şərur" Ədəbi Birliyini Şərurun Yazıçılar Birliyi kimi də qəbul etmək olar".

Naxçıvanda yaşayıb-yaradan 55 şairin şeirləri şair Şamil Zamanın tərcüməsində fransız oxucularına təqdim olunub. "Naxçıvanın şeir çələngi" adlı kitaba İsa Həbibbəylinin yazdığı eyni adlı ön sözdə oxuyuruq: "Naxçıvanın şeir çələngi" konkret bir regionda yaşayıb-yaradan şairlərin yaradıcılığını əhatə etsə də, bütövlükdə geniş mənada Avropada Azərbaycan poeziyası haqqında dolğun təsəvvürlərin yaradılmasına xidmət edir".

Biz İsa müəllimin ayrı-ayrı dövrlərdə Əbülfəz Muxtaroğlunun, Adil Qasımlının, Fərəc Fərəcovun , Fazil Nəsirbəylinin və digər müəlliflərin yaradıcılığı ilə bağlı mətbuatda çap etdirdiyi onlarla məqaləsinin də adını çəksək, onda İsa Həbibbəylinin tədqiqatlarında Naxçıvan ədəbi mühitinin bu günkü mənzərəsi açıq-aydın şəkildə görünə bilər.

Biz bir həqiqəti bu gün aydınca dərk edirik ki, bu gün Azərbaycan mətbuatında Naxçıvan ədəbi mühiti daha çox təbliğ olunur. Bu birbaşa İsa müəllimin adı ilə bağlıdır.

**Biz ömrünün müdriklik çağını yaşayan İsa müəllimi anadan olmasının 70 illiyi münasibətilə ürəkdən təbrik edir, Azərbaycan elminin inkişafı yolunda ona cansağlığı, uzun ömür arzulayırıq.**

## *YAXŞILAR...*

***Akademik İsa Həbibbəyliyə***

Həyatda ən ağır günlərim oldu,
Büdrədim...yıxıldım...qalxdım yenidən.
İşıqlı dünyaya, bu kainata
Boylandım yenidən, baxdım yenidən.

Gördüm mən deyəni demir bu dünya,
Sıxır məngənətək kainat məni.
Ağzını açaraq əjdaha kimi
Udmağa çalışır bu həyat məni.

Üzdüm səhər-axşam qəm dənizində,
Bir saman çöpünə qalmadı güman.
İllərlə çarpışdım, çıxmaq istədim
Zamanın amansız burulğanından.

Həyat imtahana çəkdi hey məni,
Bəlkə milyon dəfə sınaqdan keçdim.
Yamanca əyildi, bəd gəldi işim,
Min bir tənə yedim, qınaqdan keçdim.

Qaldım "olum, ölüm" arasında mən,
Gördüm sınaq adlı imtahan da var.
Yaxşı ki, ən çətin, ağır zamanda
Qolumdan yapışdı yaxşı adamlar.

Sərtdi bu həyatın yamanca üzü,
Adi həqiqəti çox saldım yada;
Adam var toyu da yas kimi keçir,
Adam var yası da toydu dünyada.

Məhv edə bilmədi bu həyat məni,
Dözdüm hər sınağa- hələ varam mən.
Bu gün ayaq üstdə durduğum üçün
Yaxşı insanlara minnətdaram mən.